# AZƏRBAYCANDA DAĞ-MƏDƏN SƏNAYESİNİN BU GÜNÜ



**AZƏR ŞÜKÜROV**
*"Yer və İnsan" jurnalının baş redaktoru,*
*texniki elmlər üzrə fəlsəfə doktoru*



Hər bir ölkənin tərəqqisi və onun dünya miqyasında rəqabət qabiliyyətliliyi malik olduğu təbii resurslardan çox asılıdır. Hazırda dünya iqtisadiyyatının sürətli inkişafı da bu və ya digər dərəcədə ölkələrin malik olduğu təbii ehtiyatlardan səmərəli istifadənin səviyyəsi ilə ölçülür. Yaşadığımız əsrdə zəngin təbii sərvətlər, xüsusən də mineral resurslar bir çox hallarda ölkələrin inkişafını təmin edən başlıca faktorlardan biri kimi çıxış edir. Çünki hər bir ölkədə zəngin təbii ehtiyatlara əsaslanan sənayenin dirçəlişi və inkişafında yerin təkindəki faydalı qazıntılar daha böyük rola malikdir. Bu baxımdan da ölkəmizdə dağ-mədən sənayesinin inkişaf etdirilməsi dünya reallıqları baxımından prioritet məsələdir.

Azərbaycanın təbii sərvətlərindən məqsədyönlü istifadə və faydalı qazıntıların milli iqtisadiyyatın, qeyri-neft sektorunun inkişafına səfərbər olunnması işlərinə məhz Ulu Öndər Heydər Əliyevin hakimiyyəti illərindən başlanılmışdır. Bu gün birmənalı olaraq qeyd edə bilərik ki, Azərbaycanda dağ-mədən sənayesinin inkişafı Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ulu Öndərin hakimiyyəti dövrünə qədər Azərbaycan Respublikası Faydalı Qazıntılarının Dövlət balansında cəmi yetmişə yaxın faydalı qazıntı yataqları qeydiyyata alınmışdısa Heydər Əliyevin hakimiyyəti dövründə bu rəqəm beş yüzdən çox olmuşdur.

Ümummilli Lider hələ Azərbaycana rəhbərliyinin ilk illərindən Gəncədə alüminium istehsalı sahəsi ilə bağlı işləri diqqət mərkəzində saxlayıb.

Gəncə Gil-Torpaq Kombinatı ötən əsrin 50-ci illərindən başlayaraq Azərbaycanda böyük sənaye müəssisələrindən biri olmuşdu. 1976-cı ildə Gəncə Alüminium Zavodu kimi istifadəyə verilən müəssisə kükürd, sulfat turşusu, tikinti materialları və kənd təsərrüfatında istifadə olunan kalium gübrələrinin istehsalı ilə məşğul olub.

1970-ci ildə Ulu Öndərin göstərdiyi böyük diqqət sayəsində Azərbaycan SSR-də istehsal edilən filiz mədən məhsulunun təqribən 80 faizini, Daşkəsən şəhərinin ümumi sənaye məhsulunun 97 faizini Daşkəsən

filizsaflaşdırma kombinatı vermişdir. Kombinatda yaradılan yeni sexlər və şöbələr filiz konsentrantı istehsalını gündən-günə artırmağa şərait yaradırdı.

Bu sahənin ölkəmiz üçün iqtisadi əhəmiyyətini nəzərə alan Ulu Öndər Heydər Əliyevin tapşırığı ilə Azərbaycanın dağ-mədən sənayesinin müasir inkişaf konsepsiyası işlənib hazırlanıb.

Azərbaycan xalqının böyük oğlu - Ulu Öndər Heydər Əliyev ölkə rəhbərliyinə qayıdan zamandan yeraltı sərvətlərdən səmərəli və xalqın milli maraqları zəminində istifadə olunmasını zəruri hesab etmiş və bu işə milli və xarici investisiyaların cəlb olunmasını prioritet saymışdı.

Respublikamızda qızılçıxarma sənayesinin yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının bir sıra qızıl yataqlarının kəşfiyyatı və işlənməsi barədə" 1996-cı il 5 fevral tarixli sərəncamına uyğun olaraq 1997-ci il avqustun 20-də keçmiş "Azərqızıl" Dövlət Şirkətinin ABŞ-nin "RV İnvestment Qroup Services LLC" arasında Gədəbəy, Qoşa, Ordubad qrupu (Pyazbaşı, Ağyurd, Şəkərdərə, Kələki), Söyüdlü, Qızılbulaq və Vejnəli perspektivli qızıl yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatının pay bölgüsü haqqında saziş imzalanmış və 2005-ci ildən erməni qəsbkarları tərəfindən işğal edilmiş ərazilərdə yerləşən Söyüdlü (Zod), Qızılbulaq və Vejnəli yataqları istisna olmaqla, digər yataqlarda əlavə öyrənilmə işləri aparılmışdır.

28 dekabr 2006-cı il tarixli 1877№-li Sərəncama uyğun olaraq 2006-cı il dekabr ayının 30-da Azərbaycan Respublikası Hökuməti ilə "Londeks Resorsiz S.A.", "Uill end Meyris S.A.", "Farqeyt Mayninq Koroqeyhu", "Olobeks İnternəhnl LLR", və "Mitsui Mineral Development Enjeniring Ko LTD" arasında "Azərbaycan Respublikasında Qaradağ, Covdar, Göydağ, Dağkəsəmən filiz sahələrinin, Köhnəmədən sahəsinin və Kürəkçay hövzəsi yataqlarını öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Saziş imzalanmışdır.

Ölkəmizin mineral-xammal bazasının mövcud vəziyyəti və perspektivləri respublikanın dağ-mədən sənayesinin inkişaf etdirilməsinə milli və xarici investisiyaları cəlb etməklə yaxın cələcəkdə dağ-mədən sənaye məhsulları və xammalının dünya bazarına inteqrasiya olunmasına geniş imkanlar yaradır.

Hazırda Azərbaycanın mövcud imkanları onu mineral-xammal ixrac edən ölkədən yüksək dərəcədə inkişaf etmiş dağ-mədən sənayesinə malik olan bir respublikaya çevirməyə qadirdir.

**Dağ -mədən sənayesi yeni dövrdə**

Ümummilli Liderin əsasını qoyduğu dağ-mədən sənayesinin inkişaf strategiyası sonrakı illərdə möhtərəm Prezident İlham Əliyev tərəfindən qətiyyətlə və uğurla davam etdirilməkdədir. Azərbaycan Prezidenti İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da qeyri-neft sektorunun inkişaf etdirilməsi məqsədi ilə ölkənin malik olduğu təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsinin genişləndirilməsi və onlardan istifadənin səmərəliliyinin yüksəldilməsi nəzərdə tutulub. Respublika ərazisində yaradılmış mineral-xammal bazasının mövcud vəziyyəti və perspektivləri ölkəmizdə dağ-mədən sənayesinin inkişaf etdirilməsinə milli və xarici investorların cəlb olunması ilə dünya sənayesinə inteqrasiyasına geniş imkanlar açıb. Ölkədə dağ-mədən sənayesi və metallurgiya kompleksinin inkişaf etdirilməsi Azərbaycan Prezidenti İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi" adlı sənəddə də yer alıb. "Strateji Yol Xəritəsi"ndə dağ-mədən sənayesi və metallurgiya kompleksinin inkişaf etdirilməsi kimi mühüm vəzifə də öz əksini tapıb. Azərbaycan ərazisində yerləşən faydalı qazıntı yataqlarından hasil olunan metal filizlərindən səmərəli istifadə üçün ölkə rəhbərliyi tərəfindən qəbul olunmuş bir sıra qərarlar bu sahədə işlərin daha effektiv idarə olunması və təkmilləşməsinə xidmət edib. Bu baxımdan, dövlət başçısının "Yerin təkindən istifadə olunmasının, onun mühafizəsi və idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi, bu sahəyə dövlət nəzarətinin gücləndirilməsi tədbirləri haqqında" 16 iyul 2018-ci il tarixli, 205 nömrəli Fərmanına uyğun olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi" yaradılıb.

Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramlarında ölkəmizin qeyri-neft sektorunun və fəaliyyətinin önəmli mərhələsini yaşayan dağ-mədən sənayesinin də yeni inkişaf istiqamətləri müəyyən olunub. Bu məqsədlə Azərbaycanın mühüm mineral ehtiyatlarının mənimsənilməsi və ixrac potensialının gücləndirilməsi məqsədilə Prezident İlham Əliyevin 11 fevral 2015-ci il tarixli 1047 nömrəli Sərəncamına əsasən "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti yaradılıb. Bununla da ölkə ərazisində əlvan və qara me-



tal filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, idarə olunması, bu metalların hasilatı, emalı və satışı, bu sahədə yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə bu sahənin inkişafı ilə bağlı əhəmiyyətli işlərə başlanılıb. Azərbaycan Prezidentinin 23 aprel 2013-cü il tarixli 2875 nömrəli Sərəncamı ilə səhmləri dövlətə məxsus olan "Azərbaycan Polad İstehsalı Kompleksi" QSC yaradılıb. Lakin qeyri- effektiv fəaliyyəti səbəbindən qurum 2016-cı ildə ləğv olunub və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi üzrə işlərə başlanılıb.

Bu mərhələdə ölkənin qeyri-neft sektorunda, xüsusən də sənaye, metallurgiya sahələrində mövcud olan qeyri-səmərəli yanaşmaların, pərakəndəliyin aradan qaldırılması və bu sahələrdə optimallaşdırılmanın aparılmasına ciddi zərurət yarandı.

Prezident İlham Əliyevin etimadı və imzaladığı “Dağ-mədən və metallurgiya sənayesində iqtisadi islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” və “AzerGold” QSC-nin yaradılması haqqında" 11 fevral 2015-ci il və “Metallurgiya kompleksində sağlamlaşdırma və restrukturizasiya tədbirlərinin həyata keçirilməsi haqqında” 13 iyul 2016-cı il tarixli Prezident sərəncamlarına əsasən, “AzerGold” QSC-yə ölkə ərazisində dəmir filizi yataqlarının öyrənilməsini, tədqiqini, kəşfiyyatını, işlənilməsini və idarə olunmasını, bu sahədə yeni texnologiyaların tətbiqini, maddi-texniki bazanın müasirləşdirilməsini və ondan səmərəli istifadəni, habelə bu sahənin inkişafı ilə bağlı digər işlərin yerinə yetirilməsini təmin etmək tapşırılıb. Bütün bu vəzifələrin “AzerGold”- QSC-yə həvalə olunması isə proseslərin optimallaşdırılması baxımından düzgün qərar olduğunu sübut edib. 2020-ci il dekabrın 14-də Daşkəsən Dəmir Filizi Məhdud Məsuliyyətli Cəmiyyəti təsis edildi.

Müasir dövrdə dağ-mədən sənayesinin inkişafı və bu sahədə uğurlu fəaliyyətin təmin edilməsi üçün qəbul olunan qanunvericilik sənədləri və dövlət proqramları xüsusi əhəmiyyət daşıyır. Belə ki, Azərbaycan Prezidentinin 16 mart 2020-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş “Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı” mineral xammal bazasının qorunması, təbii sərvətlərdən səmərəli istifadə edilməsi, xammal tələbatının ödənilməsi, qanunvericiliyin tələblərinə, norma və standartlara əməl olunması, təhlükəsizliyin və şəffaflığın təmin edilməsi, ətraf mühitin, təbii landşaftın mühafizəsinə dövlət nəzarətinin gücləndirilməsi məqsədilə də müvafiq tədbirlərin həyata keçirilməsinə imkan verib.

**Çatışmazlıqlar**

- Özəl şirkətlər tərəfindən yataqların qeyri-müvafiq şəkildə istismar etdirilməsi;
- Əməliyyatların səviyyəsinin özəl şirkətlər tərəfindən beynəlxalq standartlara uyğun səviyyədə olmaması;
- Özəl şirkətlər tərəfindən yataqların istismarı ilə əlaqəli ekoloji problemlər;
- Filiz və qeyri-filiz yataqları bir mərkəzdə birləşdirən dağ-mədən fəaliyyəti üçün mərkəzləşdirilmiş qurumun olmaması;
- İxtisaslaşdırılmış texniki tədris müəssisələrinin olmaması və ali təhsil müəssisələrində mədənçilik sahəsində ekspert və mütəxəssislərin hazırlanması üçün şəraitin yetərincə olmaması;

**Effektiv həllər**

Qeyd edilməlidir ki, dağ-mədən sənayesi iqtisadiyyatın xüsusi sahəsidir, bu sahədə həyata keçirilən fəaliyyət çox sayda qurum və təşkilatların birgə səylərinin koordinasiyasını tələb edir və vahid konsepsiyaya əsaslanır. Bu kontekstdə ölkəmizin dağ -mədən sənayesinə baxış və yanaşmalarda qurumlar arasında vahid konsepsiyanın və koordinasiyanın olmaması sahənin inkişafına ciddi əngəl törədir. Tarixə ekskurs etsək görərik ki, 70 -ci illərdə Ulu Öndər bir sıra dağ-mədən sənaye obyektlərinin fəaliyyətinin effektiv idarə olunmması işlərinə bir sıra dövlət qurumlarını ekologiya, kənd təsərrüfatı, maliyyə, torpaq fondu və s. cəlb etməklə bu sahənin uğurlu fəaliyyətinə nail ola bilmişdir. Bu yanaşma bu gün də öz aktuallığını qoruyub saxlamaqdadır.

Burada həm də yüksək keyfiyyətli axtarış-kəşfiyyat işlərinin aparılmasını təmin edəcək yüksək hazırlıqlı mütəxəssislərin cəlb edilməsi də ciddi faktordur. Yeri gəlmişkən, hələ sovetlər dövründə Ulu Öndər Heydər Əliyev istedadlı azərbaycanlı gəncləri müxtəlif ixtisaslar üzrə keçmiş SSRİ-nin iri şəhərlərindəki ali təhsil müəssisələrinə, o cümlədən dağ-mədən ixtisaslı ali məktəblərə oxumağa göndərməklə bu gün üçün tələb olunan kadrların hazırlanması qeydinə qalmışdır.

Hesab edirik ki, bu nəcib ənənəni indi də davam etdirməklə ölkəmizin istedadlı gənclərinin yüksək ixtisaslı dağ mühəndisi yetişdirmək məqsədilə dünyanın tanınmış dağ-mədən akademiyalarına göndərilməsi yaxşı olardı.

Məlumdur ki, filiz-axtarış işləri üçün ayrı-ayrı torpaq sahələrinin seçilməsində, axtarış-kəşfiyyat işlərinin aparılması sahəsində fəaliyyətinə bir sıra qurum və təşkilatlar tərəfindən süni əngəllərin yaradılması, lazımsız müdaxilələr dövlət əhəmiyyəti daşıyan bu sahənin strateji hədəflərinə kölgə salır. Bir çox hallarda müvafiq tədqiqat-kəşfiyyat işlərinin aparılması üçün zəruri olan normativ sənədləşmələrin aparılmaması və ya müvafiq razılaşmanın olmaması bu sahədə effektiv dağ-mədən işlərinin həyata keçirilməsinə maneçilik yaradır.

Bir məqamı da xüsusi qeyd edək ki, "Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı"nda dağ-mədən sənayesinin inkişafı əsas hədəflərdən biri kimi göstərilir və əsas icraedeci qurumlar olaraq Ekologiya və Təbii Ehtiyatlar Nazirliyi, "AzerGold" QSC müəyyən olunub. Ölkə başçısı tərəfindən təsdiq olunmuş "Azərbaycan Respublikasının 2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" sənədində əsas icraedici qurum olaraq Ekologiya və Təbii Ehtiyatlar Nazirliyi qarşısında 2026-cı ilə qədər "Mineral xammal bazasından səmərəli istifadə" fəaliyyət istiqaməti olaraq mineral xammal resurslarından istifadə mexanizmlərinin təkmilləşdirilməsi, faydalı qazıntı hasilatında müasir texnologiyalardan istifadənin stimullaşdırılması, istismarı bitmiş faydalı qazıntı yataqları ərazilərinin rekultivasiyası kimi vəzifələrin icrası qoyulub.

Azərbaycan Respublikası Faydalı Qazıntılarının Balansında olan filiz və qeyri-filiz yataqları üzrə faydalı komponentlərin ümumi "bazar məbləği"nin təxmini dəyəndirilməsi vacib məqamlardan biridir. Bu təhlillər Vətənimizin mineral sərvətlərinin neft-qaz sərvətlərimizdən heç də geri qalmadığını sübut edir. Söhbət 100 milyardlarla vəsaitin ölkəmizin inkişafına cəlb edilməsindən gedir. Bu isə gərgin və planlı əmək tələb edir. Bu sərvətlər müvafiq qurumların, bu sahəni dərindən bilən mütəxəssislərin koordinasiyalı və mərkəzləşdirilmiş işbirliyi ilə istismar edilməlidir. Kadrların təyinatında professionallıq əsas şərt olmalıdır. Fikrimizi cəmləşdirsək, nəhayət, dağ-mədən sənayesi vahid mərkəzdən idarə olunmalı, mövcud pərakəndəlik aradan qaldırılmalıdır. Hazırda fəaliyyətdə olan, ancaq dağ-mədən sənayesinin inkişafına heç bir ciddi töhfə verməyən qurumlar yaradılacaq mərkəzin tabeliyinə verilməli və fəaliyyətləri yenidən təşkil olunmalıdır.

Dağ-mədən sənayesi konkret proqram əsasında inkişaf etdirilməli, sahənin fəaliyyəti ən müasir texnika və yüksək texnologiyalardan istifadə əsasında yenidən təşkil olunmalı, eləcə də ekoloji təhlükəsizlik məsələləri tam şəkildə öz həllini tapmalıdır.

Yeni dövrdə əsas hədəflərdən biri olaraq Azərbaycanda ehtiyatları hələ öyrənilməmiş digər yataqlarda, xüsusən də böyük Zəfərdən sonra Qarabağ torpaqlarında kəşfiyyat işlərinin aparılması və istismara cəlb edilməsinə nail olmaq kimi mühüm vəzifə durur. Birmənalı şəkildə qeyd edilməlidir ki, müvafiq qurumların koordinasiyalı səyləri nəticəsində dağ-mədən sənayesində işlərin effektiv təşkili Azərbaycanda yeni iqtisadi sıçrayışın əsasını təşkil edə və dağ-mədən sənayesində Azərbaycan brendinin formalaşmasına imkan yarada bilər.